**Dövlət Statistika Komitəsində Avropa Komissiyasının İNOGATE Proqramı çərçivəsində seminar keçirilmişdir.**

Avropa Komissiyasının İNOGATE Proqramı çərçivəsində İNOGATE Texniki katibliyinin ekspert qrupu və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndələrinin birgə səyləri ilə hazırlanmış və təsdiq edilmiş "Azərbaycan Respublikası üçün Energetika statistikasına dair Milli Fəaliyyət Planı"nın yerinə yetirilməsinə texniki dəstək göstərilməsi ilə əlaqədar olaraq xanım Qloriya Aqinaldonun rəhbərliyi altında İNOGATE Texniki Katibliyinin Energetika statistikasının 4 nəfərdən ibarət ekspert qrupu 2013-cü il sentyabr ayının 16-dan 20-dək Dövlət Statistika Komitəsində seminarlar keçirmişdir.



Seminarın birinci günü Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov qonaqları salamlamış və Energetika statistikası sahəsində son illər aparılmış uğurlu işlər barəsində nümayəndə heyətinə məlumat vermiş, Sənaye və tikinti statistikası şöbəsinin müdiri Hacıbala Dadaşov "Azərbaycan Respublikasında energetika statistikasının mövcud vəziyyəti, energetika üzrə statistik məlumatların yığılması və işlənməsində təşkilati və metodoloji yanaşmalar, qarşıya çıxan problemlər və onların İNOGATE çərçivəsində həlli yolları" mövzusunda təqdimatla çıxış etmişdir.



Seminarlarda İNOGATE Texniki Katibliyinin ekspertləri xanım A. Kinderman və cənab D. Peşut tərəfindən "Enerji səmərəlilik göstəriciləri", "Enerji səmərəliliyinin tərtibi metodologiyasının hazırlanması - toplanması və ev təsərrüfatları üçün məlumatların emalı" və "Enerji səmərəliliyi metodologiyasının inkişafı: xidmət sektorunda məlumatların toplanması və emalı" mövzularında çıxışlar oldu. Eləcə də, İNOGATE Texniki Katibliyinin ekspertləri və Dövlət Statistika Komitəsinin Sənaye və tikinti statistikası şöbəsinin əməkdaşları arasında enerji statistikasına dair geniş diskussiyalar aparılmışdır. İNOGATE Texniki Katibliyinin ekspertlərinin səfərinin sonuncu günündə Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyində geniş tərkibdə - enerji sahəsində fəaliyyət göstərən bir sıra təşkilatların və habelə Dövlət Statistika Komitəsinin nümayəndələrinin iştirakı ilə yekun iclas keçirilmişdir.

